

# Azərbaycanda yeni idarəçilik modeli yaradılıb

***Hər kəsə məlumdur ki, 44 günlük tarixi Qələbədən sonra Azərbaycanda, Qarabağımızın bərpası, yenidən əvvəlki vəziyyətinə qaytarılması, dirçəldilməsi yolunda Prezident İlham Əliyevin tövsiyələri ilə mühüm addımlar atılmağa başlanılıb. Bu addımlar sırasında "Qarabağ Dirçəliş Fondu"nun yaradılmasını, icra hakimiyyətlərində şəhid ailələri və qazilərlə bağlı müvafiq şöbənin təşkil edilməsinin nəzərdə tutulmasını, Füzuli – Şuşa yolunun, Füzuli Beynəlxalq Hava Limanının təməllərinin qoyulmasını xüsusilə qeyd etmək lazımdır.***



Artıq bu sıraya daha biri əlavə olunmuşdur. Bu da dövlət başçısının fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələrinin təyin edilməsi məsələsidir. Həmin fərmana əsasən, işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinin təsis edilməsi nəzərdə tutulur. Həmçinin, fərmanla müəyyənləşdirilmiş qaydada Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinə Prezident tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri rəhbərlik edəcəklər. Eyni zamanda, xüsusi nümayəndələr dövlət başçımızın müəyyən etdiyi ərazi hüdudlarında Azərbaycan Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirəcəklər.

Bəli, bunun özü zəfərimizə növbəti zəfər, uğurumuza daha bir uğur qatılması istiqamətində atılan mühüm addımlardan biri kimi qiymətləndirilməlidir. Bunun özü Qarabağımıza bir daha övlad yanğısı, sevgisi ilə sarılmağımızın, ona əvvəlkindən də daha çox sahiblənməyimizin təcəssümüdür.

Bu, bir daha "Qarabağ bizimdir, heç zaman bizim olmadığı qədər bizimdir", "Qarabağ Azərbaycandır!" deməyimizin, onu bir daha təsdiqləməyimizin ifadəsidir.

Bəli, son fərman Qarabağımızın bərpası, dirçəldilməsi, onun idarəçiliyinin yüksək səviyyədə təmin və təşkil edilməsi baxımından çox önəmli və əhəmiyyətlidir. Bunun müsbət töhfələri mütləqdir və qaçılmazdır.

Qardaşları bir daha dostlaşdıran "Dostluq" layihəsini də xüsusi qeyd etmək lazımdır. Belə ki, bu il yanvarın 21-də Azərbaycan Respublikası hökuməti ilə Türkmənistan hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirildi.

Görüşün yekunu olaraq tarixi anlaşma memorandumunun imzalanma mərasimi baş tutdu, Azərbaycan Respublikası hökuməti ilə Türkmənistan hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında sənəd imzalandı. Bu, çox böyük tarixi hadisədir, uğur və nailiyyətdir. Bunun həm də iki qalibi var, burada uduzan yoxdur, burada yalnız qazanan var. Qalib də, qazanan da iki qardaş və dost–Azərbaycan və türkmən xalqları, Azərbaycan və Türkmənistan dövlətləridir.

Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, Xəzər mehriban qonşuluq, əməkdaşlıq dənizidir, Xəzər ölkələrimiz arasında təbii sərhəd olmasına baxmayaraq, bundan sonra da ölkələrimizi və xalqlarımızı birləşdirəcək.

Bəli, qeyd olunduğu kimi, Türkmənistan və Azərbaycan nisbətən gənc müstəqil dövlətlərdir. Belə ki, bizim müstəqil dövlətlərə çevrilməyimizdən heç 30 il keçməyib. Lakin bu illər ərzində çox böyük uğurlar qazana bilmişik. Bu gün inamla irəliləyirik, sosial rifah, iqtisadi inkişaf, qlobal transmilli layihələr sahəsində çox mühüm məsələləri həll edirik. Ölkələrimiz investisiyalar üçün açıqdır.

Xarici şirkətlər həm Türkmənistana, həm də Azərbaycana inamla böyük vəsait yatırırlar. Ona görə ki, vəsaitlərinin qorunacağına əmindirlər. Onlar bu ölkələrdəki siyasi sabitliyə əmindirlər, o da bu gün ən mühüm inkişaf amilidir. Sabitlik olmadan inkişaf mümkün deyil. Sabitlik tərəqqiyə, rifaha, investisiyalara, ən iri beynəlxalq şirkətlərin diqqətinə və bununla da ölkələrin beynəlxalq aləmdə rolunun, onların təsirinin möhkəmlənməsinə gətirib çıxarır.

Bu gün ölkələrimizin həm tarixi, həm də mədəni baxımdan oxşarlığı, ortaq köklərimiz, ortaq dilimiz, ortaq dinimiz barədə danışarkən, əlbəttə, biz bütün bu müsbət cəhətləri səmərəli əməkdaşlığa transformasiya etmişik. Prezidentimizin də bəyan etdiyi kimi, beləliklə, biz, sadəcə, Xəzərdə bir yataq haqqında memorandum imzalamırıq, bu gün biz münasibətlərimizin gələcək uğurlu inkişafında çox mühüm addım atırıq.

Addımlarımız, qədəmlərimiz mübarək olsun! Yaşasın, Azərbaycan – Türkmənistan dostluq və qardaşlığı!

Şəhidlərimiz və qazilərimiz həmişə olduğu kimi, yenə də dövlət başçısının diqqət mərkəzindədir. Bu günlərdə bunun bir daha şahidi olduq. Ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı olan cənab İlham Əliyevin 18 illik hakimiyyəti dövründə də daim şəhid ailələri, Vətən müharibəsi iştirakçıları, əlilləri və qazilərinə diqqət, qayğı əsas prioritetlərdən olub.

Ölkə Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər zaman şəhid ailələrinə, Qarabağ savaşı əlillərinə, qazilərinə, veteranlarına xüsusi münasibətləri, həssaslıqları və sevgiləri ilə seçiliblər, daim onların yanlarında olublar.

Elə son zamanlarda yaradılan YAŞAT Fondu həmin həssas münasibətin əyani nümunəsidir. Bu istiqamətdə daha bir addım kimi, bu gün, 25 yanvar tarixində ölkə Prezidenti tərəfindən imzalanan növbəti sərəncamı göstərmək olar.

Belə ki, ölkə Prezidenti Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında sərəncam imzalayıb ki, burada da Vətən müharibəsi əlilləri və şəhid ailələrinin 5 il ərzində mərhələli şəkildə mənzillərlə təmin olunması nəzərdə tutulur.

Sərəncamla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə aşağıdakı şəxslərin (ailələrin) 2021-2025-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla tədbirlər planını təsdiq edib həyata keçirmək tapşırılır: 2014-cü il yanvarın 1-dən 2020-ci il yanvarın 1-dək yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində qeydə alınmış və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri, habelə qeydə alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş , yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində qeydə alınmış və 2020-ci ildə aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələri.

Yerli icra hakimiyyəti orqanlarına tapşırılır ki, göstərilən şəxslər barədə məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etsinlər. Nazirliyin müraciəti əsasında bu sərəncamda göstərilən məqsədlər üçün torpaq sahələrinin ayrılmasını təmin etsinlər və hər il görülmüş işlər barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

Bəli, bunun özü də daha bir diqqət və qayğının nümunəsidir. Ötən illər ərzində yüzlərlə şəhid ailəsi, Qarabağ əlili, veteranı və qazisi evlərlə, mənzillərlə təmin olunub və həmin mənzillərin açılış mərasimləri keçirilib. Bir neçəsində də şəxsən ölkə rəhbəri və birinci xanım iştirak edərək öz xeyirdualarını veriblər.

Budəfəki sərəncamla da bir daha şəhid ailələri və İkinci Qarabağ müharibəsi əlillərinin, qazilərinin mənzillərlə təmin olunması nəzərdə tutulur ki, bu da qəhrəman Vətən övladlarının kimdənsə, kimlərdənsə asılı olmaması, dövlətin himayəsi, nəzarəti və qanadı altında olması, əsl dövlət və dövlətçilik nümunəsidir. Var olsun, yaşasın, belə dövlət və onun rəhbəri olan möhtərəm Prezidentimiz!

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin Ailə, qadın, uşaq məsələləri komitəsi sədrinin müavini, filologiya elmləri doktoru, professor***